

# TÜTÜN TÜSTÜSÜNDƏN AZAD MÜƏSSİSƏ YARAT

World Health Organization
FCTC WHO FRAMEWORK CONVENTION ON TOBACCO CONTROL SECRETARIAT
UN INTERAGENCY TASK FORCE ON NCDs
#beatNCDs
@un_ncd

Bu sənəd Vital Strategies tərəfindən idarə edilən və Bloomberg Philanthropies tərəfindən maliyyələşdirilən Vital Strategies təşkilatının ayırılmış vəsaiti hesabına həyata keçirilən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) “Azərbaycanda tütünlə mübarizə üzrə kompleks tədbirlərinin təşviqi” layihəsi çərçivəsində 2024-cü ildə tərcümə edilmişdir.
Sənədin məzmununa görə yalnız müəlliflər məsuliyyət daşıyırlar və heç bir halda Vital Strategies və ya donorların mövqeyini əks etdirmir.

# MÜNDƏRİCAT

## Bölmə 01:
## Nə üçün tütündən azad müəssisələr? 5

Bunu bilirdiniz? 6

Müəssisə tütün tüstüsündən azad olduqda, hər kəs qazanır 8

Miflər və faktlar 10

Tütündən imtina etdikdən sonra 20 dəqiqə ərzində 11

## Bölmə 02:
## Tütünsüz müəssisəyə doğru səkkiz addım 12

Tütün tüstüsündən azad BMT-nin qurulması üçün əsas və zərurət **14**

Addım 1: Planlaşdırma komitəsini çağırmaq 15

Addım 2: İşçilər arasında sorğu keçirmək 15

Addım 3: Dəstəkverici mühit yaratmaq 16

Addım 4: Pulsuz tütündən imtina xidməti yaratmaq və təklif etmək 16

Addım 5: İşçiləri tüstüsüz məkan siyasəti ilə tanış etmək və necə riayət etməyi öyrətmək 17

Addım 6: Müəssisənizin tütün tüstüsündən azad məkan siyasətini bəyan etmək 18

Addım 7: İcra etmə, tətbiq etmə, müşahidə, qiymətləndirmə 18

Addım 8: Tütün tüstüsündən azad müəssisəni dəstəkləyin 19

## Əlavələr 20

Əlavə 1. Planlaşdırma Komitəsinin çağırılması və işi bardə məlumat verilməsi 20

Əlavə 2. İşçilərin seçmə sorğusu 20

Əlavə 3. Dəstəkləyici mühitin yaradılması 22

Əlavə 3.1. Təbliğat materialının nümunəsi 23

Əlavə 4. Tətbiq olunma və qiymətləndirmə 24

Əlavə 4.1. AB-də tütün tüstüsündən azad məkanlara dair qanunvericiliyin qiymətləndirilməsi 25

Əlavə 5. İstinadlar və mənbələr 26



BÖLMƏ

# 01

# Nə üçün tütündən azad müəssisələr?





# Bunu bilirsiniz?



**Siqaret çəkən işçilər xəstəliklər səbəbindən daha çox işə çıxmır**

İş günlərinin itirilməsi riski kişilər üçün 60%, qadınlar üçün isə 15% daha yüksəkdir *(1)*



**Siqaret çəkməyən işçilər ətrafa yayılan tütün tüstüsündən yaranan xəstəliklər riski altındadır**

Tütün çəkməyə icazə verən restoran və barların işçiləri arasında ağ ciyər xərçənginin yayılması ümumi əhaliyə nisbətən 50% daha yüksəkdir *(2)*



**İstehsalat qəzaları, yanğınlar və istehsalatda travmalar daha çox *(3,4)* tütündən istifadə qadağan olunmayan məkanlarda baş verir**



**Hüquqi risk, ətrafa yayılan tütün tüstüsündən zərər çəkən siqaret çəkməyən işçilər tərəfindən potensial məhkəmə çəkişmələrindən irəli gəlir**



**Siqaret çəkmə fasilələri real işdən yayındırır**

Birləşmiş Krallıqda aparılan araşdırmalar göstərdi ki, siqaret çəkənlər hər iş gününün 40 dəqiqəsini siqaret çəkmə fasilələrinə sərf edir *(5). Bu, işləmək əvəzinə siqaret çəkdiyiniz il ərzində 20 günə bərabərdir.*



**Təmizlik işləri üçün xərclər daha yüksəkdir**

Siqaret çəkməyə icazə verən müəssisələrdə 10%-dan çox ola biləcək təmizlik işlərinin göstərilməsi qəbzlərii var *(6)*

# Müəssisə tütün tüstüsündən azad olduqda, hər kəs qazanır

**İşəgötürənlər üçün faydalar**

1. Tütün tüstüsündən azad iş yerləri daha sağlam və məhsuldar işçi qüvvəsi yaradır.
2. İşçilərin sığorta haqları üçün illik tibbi xərclər daha azdır.
3. Yanğın, bədbəxt hadisə və işdə xəsarətlər riski azalır.
4. Bu, yanğınlar və qəzalar üçün sığorta haqlarının aşağı düşməsinə səbəb olur.
5. Təmizlik və təmir xərcləri də azalır.
6. Ətrafa yayılan tütün tüstüsündən zərər çəkən siqaret çəkməyən işçilər tərəfindən məhkəmə iddiaları riski azalır.
7. Daha sağlam iş yeri üçün çalışan BMT təşkilatının imici yaxşılaşır.
8. Bu, xüsusən də tüstüsüz mühitlə bağlı dövlət siyasətinin hələ qəbul edilmədiyi sahələrdə cəmiyyət üçün yaxşı nümunədir.

**Ziyarətçilər və işçilər üçün faydalar**

1. Onların ətrafa yayılan tütün tüstüsünün təsirinə məruz qalması azalır.
   Bu ətrafa yayılan tütün tüstüsü səbəbindən yaranan sağlamlığa mənfi təsir riskini azaldır
2. Tütün çəkmə qadağan edilən iş yerindəki ziyarətçilər (uşaqlar da daxil olmaqla) daha təravətli və təmiz atmosferdən zövq alaraq, daha pozitiv olurlar.
3. Siqaret çəkməyi qadağan edən lövhədə tüstüsüz mühitlə bağlı siyasətin sağlamlıq qayğısından qaynaqlandığı açıq şəkildə ifadə edildikdə, ziyarətçilər və qonaqlar rəhbərliyi daha həssas və qayğıkeş olduğunu düşünürlər.





**İşçilər üçün faydalar**

1. Siqaret çəkənlər üçün tütün tüstüsündən azad iş yerləri, sağlamlıqlarını qorumaqla, onları tütün çəkməkdən tamamilə imtina etmələrinə inandırmağa kömək edir.
2. Siqaret çəkməyənlər üçün ətrafa yayılan tütün tüstüsünün sağlamlıq üçün təhlükəsi aradan qaldırılır.
3. Həm tütün çəkənlər, həm də çəkməyənlər üçün tütün tüstüsündən yaranan tənəffüs və allergik simptomlar nəzərəçarpacaq dərəcədə azalır.
4. Tütün tüstüsünə məruz qalmanın xərçəng və ürək xəstəliyi kimi digər sağlamlıq təhlükələri də əhəmiyyətli dərəcədə azalır.
5. Tütündən istifadə (ya aktiv tütün çəkmə, ya da ikincili  tütün tüstüsü ilə nəfəs alma) səbəbindən səhhətinə görə erkən təqaüdə çıxma ehtimalı azdır.
6. Daha sağlam iş yeri və artan məhsuldarlıq ilə biznes inkişaf edir və iş yerləri daha təhlükəsiz olur.
7. Tütün tüstüsündən azad iş yerləri ümumi mənəvi vəziyyətin yaxşılaşdığını bildirir.
8. Tütün tüstüsündən azad iş yerlərində çalışanlar, "üçüncü tütün tüstüsünü" (geyimdə, çantada, dəridə və saçlarda qalan tütün tüstüsünün qalıqları) evlərinə gətirmək riskini azaldır. Beləliklə, onlar uşaqlarının üçüncü tütün tüstüsünə məruz qalmasını azaldır, öz paltarları isə daha təravətli və təmiz qalır!

# Tütün tüstüsündən azad iş yerləri haqqında **miflər və faktlar**

| Miflər | Faktlar |
|---|---|
| İş yerini tütün tüstüsündən 100% azad məkana çevirmək lazım deyil; yalnız siqaret çəkmək üçün bir yer təyin edin. | Siqaret çəkmək üçün yerlər işçilərin və ziyarətçilərin hələ də ikincili tütün tüstüsünə məruz qaldıqlarını, yanğın və qəza risklərinin olduğunu göstərir. Tütün tüstüsünün təhlükələrini aradan qaldırmağın yeganə yolu tütün tüstüsündən 100% azad olmaq siyasətidir. |
| İş yerini tütün tüstüsündən 100% azad məkana çevirmək lazım deyil; sadəcə havalandırılan siqaret çəkmək üçün otaqlar yaradın. Havalandırma sistemləri qapalı yerlərdə tütün tüstüsündən xilas edə bilər. | Hətta ən inkişaf etmiş havalandırma sistemi tütün tüstüsünü və ya ikincili tütün tüstünün təsirini aradan qaldıra bilmir. Amerikanın İstmə, Soyutma və Hava Kondisionerləri üzrə Mühəndislər Cəmiyyəti bildirir ki, hazırda qapalı məkanlarda tütün tüstüsünə məruz qalma ilə əlaqəli sağlamlıq risklərini təsirli şəkildə aradan qaldırmağın yeganə yolu tütün çəkmənin qadağan edilməsidir(7). |
| Tütün çəkmənin qadağan edilməsi siyasəti işçilər tərəfindən bəyənilmir. | Siqaret çəkənlərin əksəriyyəti faydaları hiss etdikdən sonra tütün tüstüsündən azad məkanlar siyasətini dəstəkləyirlər. |
| İş yerində tütün çəkmənin qadağan edilməsi siyasəti yalnız müvafiq milli qanun varsa lazımdır. | Bütün ölkələrdə işçilərin təhlüksiz iş yeri ilə təmin edilməsi işəgötürənlərin öhdəsinə qoyulur, belə ki, tütün tüstüsü də sağlamlığa ciddi təhlükə törədir. Bir sıra ölkələrdə tütün tüstüsündən azad iş yerlərinin yaradılması müvafiq milli qanunvericilikdən əvvəl olub və bu sahədə sağlamlığı dəstəkləyən qərarlara yol açıb. |



# Tütündən imtina etdikdən sonra 20 dəqiqə ərzində…

bədəninizdə illərlə davam edən bir sıra dəyişikliklər başlayır.

**20 Dəqiqə** – Ürək ritminiz azalır.

**12 Saat** – Qanınızdakı karbon monoksid səviyyəsi normaya düşür.

**2-3 Həftə Ay** – Qan dövranınız və ağciyər funksiyanız yaxşılaşmağa başlayır.

**1-9 Ay** – Sizdə öskürək və təngnəfəslik azalır.

**1 il** – Ürəyin işemik xəstəliyinə görə əlavə riskiniz tütün çəkənə nisbətən iki dəfə azdır.

**5 il** – İnsult riskiniz tütündən imtina etdikdən 5-15 il sonra siqaret çəkməyənlərin səviyyəsinə qədər azalır.

**10 il** – Ağciyər xərçəngindən ölüm riskiniz çəkənlərə nisbətən təxminən iki dəfə azdır. Ağız, boğaz, qida borusu, sidik kisəsi, böyrək və mədəaltı vəz xərçəngi riskiniz azalır.

**15 il** – Ürəyin işemik xəstəliyi riskiniz siqaret çəkməyənlərin səviyyəsinə qayıtdı.

BÖLMƏ

# 02

# Tütünsüz müəssisəyə doğru səkkiz addım



## 1
Planlaşdırma komitəsini çağırmaq



## 2
İşçilər arasında sorğu keçirmək



## 3
Dəstəkverici mühit yaratmaq



## 4
Pulsuz tütündən imtina xidməti yaratmaq və təklif etmək



## 5
İşçiləri tüstüsüz məkan siyasəti ilə tanış etmək və necə riayət etməyi öyrətmək



## 6
Müəssisənizin tütün tüstüsündən azad məkan siyasətini bəyan etmək



## 7
İcra etmə, tətbiq etmə, müşahidə, qiymətləndirmə



## 8
Tütün tüstüsündən azad məkanı dəstəkləyin



# Tütün tüstüsündən azad BMT-nin qurulması üçün əsas və zərurət

## Tütün tüstüsündən azad iş yerləri haqqında

Tütündən istifadə xərçəng, ürək xəstəliyi və xroniki obstruktiv ağciyər xəstəliyi daxil olmaqla ən çox yayılmış qeyri-infeksion xəstəliklər üçün əsas risk faktorudur. 2007-ci ilin iyul ayında Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası (ÜST TMÇK) Tərəflərinin Konfransının (TK) ikinci iclasında, ÜST TMÇK Tərəfləri Konvensiyanın 8-ci Maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərini qəbul etdilər. Bu Rəhbər Prinsiplər, ikincili tütün tüstüsünün zərərli təsirlərindən effektiv qoruması üçün lazımi tədbirləri əks etdirir.

Bu sənəd BMT qurumlarını aşağıdakıların həyata keçirilməsində dəstəkləyir:

1. Birləşmiş Millətlər Təşkilatının regional və ölkə ofisləri də daxil olmaqla, bütün binalarında siqaret çəkməyin, eləcə də tütün məmulatlarının satışının tamamilə qadağan edilməsinin tətbiq edilməsini tövsiyə edən BMT-nin Baş Assambleyası tərəfindən BMT-nin tütün tüstüsündən azad binaları haqqında 2008-ci ildə qəbul edilmiş 63/8 saylı Qətnaməsi.
2. “Tütünlə mübarizə sahəsində BMT-nin ümumsistem şəklində tədbirlərin uyğunlaşdırılması”nı tələb edən İqtisadi və Sosial Şuranın 2012-ci ildə qəbul etdiyi E/RES/2012/4 saylı Qətnaməsi.

31 May 2013-cü il tarixində, Ümumdünya Səhiyyə Təşkilatının Cenevrədəki baş qərargahı tütün tüstüsündən azad müəssisə oldu ki, bu da yalnız qapalı yerlərdə tütün çəkmənin qadağan edilməsini tövsiyə edən BMT-nin müvafiq Qətnaməsindən kənara çıxır. BMT-nin QİX üzrə Qurumlararası İşçi Qrupunun (UNIATF) səylərini nəzərə alaraq 2018-ci ildə İşçi Qrupunun iclası bütün BMT qurumları tərəfindən hər iki Qətnamənin icrasının qiymətləndiriləcəyi barədə razılaşma ilə nəticələndi.
Bu baxımdan ÜST, BMT-nin tütün tüstüsündən azad binaları haqqında Qətnaməsini həyata keçirən BMT qurumlarına dəstəyi genişləndirmək və BMT müəssisələrini tütün tüstüsündən azad etməklə onları bu Qətnamədən kənara çıxmağa təşviq etmək istəyir.

Yeni nikotin və tütün məhsullarının meydana çıxması və mövcudluğu, tütün tüstüsündən azad məkanlar barədə qanunvericilik kimi tütünlə mübarizə siyasəti üçün də çətinliklər yaradır. Examples of these products include Electronic Nicotine Delivery Systems (ENDS), Bu məhsulların nümunələrinə Elektron Nikotin Çatdırılma Sistemləri (ENÇS), Elektron Qeyri-Nikotin Çatdırılma Sistemləri (EQNÇS) və Qızdırılan Tütün Məhsulları (QTM) daxildir və son vaxtlar tütün və nikotin istehsalçıları tərəfindən "tüstüsüz" olaraq təbliğ edildiyi üçün tütünlə mübarizə cəhdlərini pozmağa davam edir.
Bu üç məhsulun hər biri fərqli məhsullar kateqoriyasındadır və xüsusiyyətləri, toksikoloji profili və sağlamlığa təsirləri baxımından bir-birindən fərqlənir. 2016-cı ilin Noyabr ayında ÜST TMÇK Tərəflərinin Konfransının yeddinci iclasından sonra ÜST-nin ENÇS və EQNÇS barədə hesabatı, ENÇS/EQNÇS-in idxalını, satışını və paylanmasını qadağan etməyən Tərəfləri həmin məhsullardan istifadə etməyənlərin sağlamlıq risklərini minimuma endirmək üçün seçimləri nəzərdən keçirməyə, o cümlədən qapalı yerlərdə və ya ən azı tütün çəkmə qadağan edilən yerlərdə ENÇS/EQNÇS istifadəsini qanunla qadağan etməyə dəvət etdi.

Bu məqsədlə, BMT-nin tütün tüstüsündən azad binaları haqqında Qətnaməsi, BMT-nin 100 000 işçisini ikincili tütün tüstüsündən qorumaq məqsədi daşıyan tütün tüstüsündən azad iş yerləri siyasətini tətbiq edəcəkdir. Tədqiqatlar tütün tüstüsündən azad siyasətin tətbiqi ilə işçilərin sağlamlığını yaxşılaşdırmaqla yanaşı məhsuldarlığı artırmaq və erkən ölümün qarşısını almaq mümkün olduğunu göstərdi.[1,2,3]

ÜST TMÇK Katibliyi və Tütün məmulatının qeyri-qanuni ticarətinin aradan qaldırılması haqqında Protokol həm QİX-in profilaktikası və nəzarəti üzrə UNIATF üzvlərinin təşəbbüslərini dəstəkləməklə, həm də bu vəsaitin hazırlanmasında dəyərli məlumatlar verməklə bu təşəbbüsdə ÜST-yə qoşulur.

Bu alət dəsti, BMT-nin tütün tüstüsündən azad müəssisələrini yaratmaq üçün tövsiyə olunan səkkiz addımı özündə cəmləşdirir. Bu addımlar ABŞ-ın Xəstəliklərə Nəzarət Mərkəzlərinin tütündən azad təşəbbüsün həyata keçirilməsi təlimatından uyğunlaşdırıldı. Təlimat ÜST-nin Baş qərargahının tütün tüstüsündən azad olma təcrübəsinə əsaslanır.

**1 Qətnamə 63/8:** https://www.who.int/tobacco/global_interaction/un_taskforce/Resolution_GA_SmokFree_2008.pdf?ua=1
**2 Qətnamə** E/RES/2012/4: https://www.un.org/ga/search/view_doc.asp?symbol=E/RES/2012/4

## 1
### Planlaşdırma komitəsini çağırmaq



**Niyə: Planlaşdırma komitəsi, tütün tüstüsündən azad məkan siyasətini effektiv həyata keçirmək üçün müxtəlif şöbələrdən dəstək və öhdəlik əldə edə bilər.**

**Planlaşdırma komitəsi, həmçinin həll edilməli ola biləcək perspektivlər və problemləri, habelə hər bir əlaqələndiricinin rol və məsuliyyətlərini müəyyən edə bilər.**

**Planlaşdırma komitənin rolu və vəzifələri bunlardır:**

a. Xüsusi vəzifələrlə (məsələn, siyasətin hazırlanması və tətbiqi; tütündən imtina xidmətləri; siyasətin qiymətləndirməsi) alt komitələr / işçi qruplar yaratmaq
b. İşçilərin assosiasiyaları və vəzifəli şəxslər kimi əsas maraqlı tərəfləri cəlb edin
c. Güclü tətbiqetmə tədbirlərini hazırlamaq
d. Ayrı-seçkilik etməyən şikayət etmə proseduru yaratmaq

**Necə:** Planlaşdırma komitəsinə kommunikasiya, işçilər üçün müavinətlər, infrastruktur və fəaliyyət, sağlamlıq və təhlükəsizlik, insan resursları, həmkarlar ittifaqları, idarəetmə, əməyin sağlamlığı və təhlükəsizliyi, siyasət / hüquq və mühafizə / tətbiqetmə də daxil olmaqla müxtəlif şöbələrdən işçilər və nümayəndələr daxil olmalıdır. Komitənin ilk addımları Planlaşdırma Komitəsi sədrinin seçilməsi, Komitənin missiya və məqsədlərinin dəqiq müəyyənləşdirilməsi, təxmini büdcənin hazırlanması, tütün tüstüsündən azad məkan siyasətinin və onun tətbiqi üçün təxmini vaxt cədvəlinin (məsələn, 12 - 18 ay) hazırlanmasını əhatə etməlidir.

Fərqli siyasət komponentlərini (məsələn, siyasətin hazırlanması, siyasətin həyata keçirilməsi, tütündən imtina xidmətləri, siyasətin qiymətləndirilməsi) nəzərdən keçirmək üçün alt komitələrin və ya iş qruplarının yaradılmasına baxıla bilər, çünki bu komponentlərin eyni vaxtda planlaşdırılması lazım ola bilər. Tünün tüstüsündən azad müəssisə siyasətinin layihəsi hədəfləri, müddəti / tətbiq planını, siyasətlə təşkilatın dəyərləri arasındakı əlaqələri, digər sağlamlıq və təhlükəsizliklə əlaqəli proqramlarla (varsa) inteqrasiyanı, siqaret çəkən işçilər üçün mövcud dəstəyin təfərrüatlarını, tələblərə riayət olunmadıqda qaydaları və tütündən imtinaya dəstək üçün əlaqə məlumatları əhatə etməlidir. (Bax Əlavə 1, Planlaşdırma Komitəsinin çağırılması və işi barədə məlumat verilməsi.)

## 2
### İşçilər arasında sorğu keçirmək



**Niyə: Sorğu yeni və meydana çıxan nikotin və tütün məhsullarının istifadəsi ilə yanaşı, tütün çəkmə və ikincili tütün tüstüsünün təsirinə məruz qalma ilə əlaqəli müəssisədaxili davranış və yanaşmanı daha dərin anlamağa kömək edə və təşkilatın tütün tüstüsündən azad müəssisə siyasətini hazırlamaq və tətbiq etmək niyyəti barədə məlumatlılığı artıra bilər. Siyasət tətbiq edildikdən sonra, müəssisə icmasının təcrübələrini bölüşməsinə və siyasətə töhfə verməsinə imkan vermək üçün ikinci sorğu keçirilməlidir. Bu töhfələr siyasətin təkmilləşdirilməsi və tətbiqetmə problemlərinin öhdəsindən gəlmək üçün lazımdır.**

**Necə:** Sorğu bütün işçilərə, məsləhətçilərə və təcrübə keçənlərə göndərilməli və onların tütün tüstüsündən azad müəssisə siyasətinə dəstək səviyyəsini qiymətləndirmək üçün hazırlanmalıdır. Növbəti sorğusu siyasətin effektivliyini və müəssisəyə təsir səviyyəsini müəyyənləşdirməli, habelə mövcud ehtiyaclar və problemlər barədə əlavə məlumat əldə etməlidir. (Əlavə 2-də işçilər arasında sorğu nümunəsinə baxın).

## 3
### Dəstəkverici mühit yaratmaq



**Niyə: ÜST TMÇK-nın 8-ci Maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərinə görə, bu daxili siyasətdən dəstək almaq üçün işçilərin maarifləndirilməsi və səfərbər olunması vacibdir.**

**İşçilər arasında məlumatlandırma səviyyəsini artırmaq və siyasəti tətbiq etmək vəzifəsi öhdəsinə qoyulan şəxslər tərəfindən bu vəzifənin icrasını asanlaşdırmaq üçün məlumatlandırma kampaniyası aparılmalıdır.**

**İşçilərə məlumat verilməlidir ki, BMT bu siyasəti tətbiq etməklə BMT-nin ixtisaslaşmış qurumlarından biri olan Ümumdünya Səhiyyə Təşkilatının himayəsi altında bağlanmış beynəlxalq müqavilə ruhunda hərəkət edir.**

**Bundan əlavə, BMT belə bir siyasəti tətbiq etməklə bütün digər BMT qurumlarına və təşkilatlarına yaxşı təcrübənin qabaqcıl nümunəsini və 181 BMT Üzv Dövlətinin Tərəf olduğu qlobal hüquqi sənədlə siyasətin uyğunluğunu nümayiş etdirir.**

a. İşarələr yerləşdirmək (bax Əlavə 3)
b. Tətbiq olunma günündən əvvəll və sonra davamlı kommunikasiyanı təmin edin ((məsələn, kampaniyalar, maarifləndirici və kommunikasiya materialları, nahar seminarları – bax Əlavə 1)

**Necə:** Siyasət qüvvəyə minməmişdən əvvəl işçilərin və qonaqların siqaret çəkilməyən müəssisəyə daxil olduqlarını bildirmək üçün bütün nəqliyyat vasitələrinin və piyadaların girişlərinə işarələr qoyulmalıdır. İşarələr vaxtında quraşdırıla bilmirsə, bannerlərdən müvəqqəti istifadə edilə bilər. Binaların qapılarına binaların tütün tüstüsündən azad məkan olduğunu bildirən stikerlər yapışdırın. Siqaret çəkmək üçün yerlər və külqabılar aradan qaldırılmalı və siqaret kötüklərini söndürmək üçün qablar quraşdırılmalıdır.
Başlanğıc tarixindən əvvəl və sonra kommunikasiya kampaniyaları aparmaq, nahar seminarlarına başlamaq və ya vərəqələr (rəqəmsal və ya kağız) paylaşmaqla davamlı ünsiyyət qurmaq çox vacibdir. Bu, siyasət haqqında məlumatlılığın artırılmasına və riayət olunmanın yüksəlməsinə kömək edəcəkdir.

## 4
### Pulsuz tütündən imtina xidməti yaratmaq və təklif etmək



**Niyə: Tütün tüstüsündən azad müəssisənin məqsədi bütün işçilər üçün sağlam iş mühiti təmin etməkdir. Hər bir işçinin təmiz hava ilə nəfəs almaq hüququ vardır. Bundan əlavə, imtina etmək istəyən tütün istifadəçilərini, həmçinin yeni nikotin və yeni tütün məhsullarının istifadəçilərini dəstəkləmək və onları müvafiq imtina xidmətlərindən istifadə etməyə imkan vermək vacibdir. BMT-nin tütündən imtina üzrə sərəncamına görə, tütündən asılılığı aradan qaldırmaq üçün müalicə BMT-nin Xəstəliklərə və bədbəxt hadisələrə qarşı Sığorta Cəmiyyəti tərəfindən qarşılanır.**

**Necə:** Tütündən imtina xidmətinin tətbiqinə yanaşma, planlaşdırılan xidmət növlərinə və bu xidmətlərin göstərildiyi kanallara (məsələn, yerində klinika, sığorta planları, mövcud tütündən imtina qaynar xətti və ya BMT agentliyi və ya ölkənin təklif etdiyi veb / mobil xidmət) görə dəyişəcəkdir.
Kommunikasiya planı bütün mövcud xidmətləri əks etdirməlidir. Qeyd etmək vacibdir ki, ilk cəhddə hamı tütündən imtina edə bilmir, buna görə planlaşdırma prosesi ildə ən azı iki imtina cəhdini dəstəkləməyi düşünməlidir. Xidmətə daxil olan işçilərin sayı, həmçinin tyütündən imtinaya çalışanlar və 6 aydan sonra imtina etməyi bacaranların sayı barədə qeydlər aparılmalıdır. (ÜST-nin tütün istifadəçilərinin tütündən imtina üçün təlimatlarına və tütündən imtina üzrə məsləhətçilər üçün təlimlərə Əlavə 5-də baxa bilərsiniz.)

# 5

## İşçiləri tüstüsüz məkan siyasəti ilə tanış etmək və necə riayət etməyi öyrətmək



**Niyə: İşçilərin təlimləndirilməsi siyasətin düzgün həyata keçirilməsini təmin edə və uyğunluğu təşviq edə bilər. Bütün işçilər siyasət və onu pozanlara qarşı yanaşma ilə bağlı təlimlərdən istifadə edə bilməlidirlər.**

**Bu cür təlimin məqsədi siyasətə uyğunluq mədəniyyətini yaratmaqdır, çünki tütün tüstüsündən azad məkan siyasətin icrası hər kəsin məsuliyyətidir. İcmanın dəstəyini cəlb etmək və işçiləri riayət olunmağa nəzarət etmək və pozuntuları bildirməyə təşviq etmək, hər hansı qanuna nəzarət orqanının imkanlarını genişləndirir və riayətə nail olmaq üçün tələb olunan resursları azaldır.**

**Qaydanı pozanlara yaxınlaşmaq qorxuducu ola bilər, bu səbəbdən müvafiq alətlər və təlimlərin verilməsi tətbiqetmə və siyasətə riayət olunmağı artıra bilər.**

**Necə:** BMT agentliyinin təbiətindən asılı olaraq mütəmadi olaraq işçi heyəti / riayət etməyi tələb edən işçiləri təlimləndirmək tövsiyə olunur. İlkin üz-üzə təlimdən sonra onlayn təlim təklif oluna bilər. İlk bir neçə təlimdə aşağıdakılar olmalıdır:

- BMT-nin tüstüsüz məkan haqqında Qətnaməsi, sərəncamı və ya qeydi barədə məlumat
- Tütün çəkmənin sağlamlığa təsiri
- İkincili tütün tüstüsünün təsiri
- Tütündən necə imtina etmək
    - — Niyə tütündən imtina etməliyəm?
    - — Siqareti tərgitməklə hansı faydaları əldə edirəm?
    - — Artıq sınadım və alınmadı! Niyə yenidən cəhd etməliyəm?
    - — İlk addımı atmaq istəyirəm, nə etməliyəm?
    - — İş yerimdə hər hansı bir dəstək alacam?
- Tütündən imtina etmək istəyən siqaret çəkənləri necə dəstəkləmək olar
- Riayət etməyi tələb edən işçilərin rolu və vəzifələri
- İcra planı

İcra planında aşağıdakılar olmalıdır:

- İcra orqanlarının təyin edilməsi
- İcra etmə səlahiyyətinə kim sahibdir / sahib olacaq?
- İcra orqanlarına məsuliyyətləri barədə məlumat verilib? Əgər yox, onda məsuliyyətləri barədə onlara necə məlumat veriləcək?

## 6

### Müəssisənizin tütün tüstüsüsndən azad məkan siyasətini bəyan etmək



**Niyə: Kifayət qədər vaxt işçilərə tütün tüstüsündən azad mühit siyasətin gəldiyi barədə xəbərdar olmasına imkan verir. Rəsmi başlanğıc, siyasətin əhəmiyyətini vurğulamaq və bütün şöbələrlə üz-üzə əlaqə quraraq məlumatlılığı artırmaq və bununla da siyasətin potensial təsirini yaxşılaşdırmaq üçün vacibdir.**

a. Siyasətin başlamasını planlaşdırmaq

b. Rəsmi ba.lanman; planlaşdırmaq

**Necə:** Siyasətin başlanmasını planlaşdırarkən, kommunikasiya planını həyata keçirmək üçün kifayət qədər müddət (ən azı 9 ay) nəzərə alınaraq, siyasətin qüvvəyə mindiyi tarix müəyyən edilməlidir. Mümkünsə, siyasət havaların isti olduğu vaxtda qüvvəyə minə bilər, çünki araşdırmalar insanların yaxşı havalarda əhval-ruhiyyəsinin daha yaxşı olmağa meylli olduğunu göstərir. Rəhbərlik elan verməlidir.
Siyasətin həyata keçirilməsinin planlaşdırılması Ümumdünya Tütünsüz Günü (31 May) və ya təşkilat üçün başqa əhəmiyyətli gün kimi tanıtım imkanlarından istifadə edilə bilər. İdeal olaraq, yeni siyasət qüvvəyə minməzdən əvvəl yaxşı təbliğ olunmalıdır (məsələn, siyasətin qüvvəyə mindiyi tarixə qədərki dövrdə işçilərə göndərilən dövri xatırlatmalar və siyasət tətbiq olunmazdan əvvəl rəhbərlikdən son elan).

Tütün tüstüsündən azad məkan siyasətin qüvvəyə mindiyi gün rəhbərliyin iştirakı ilə bir və ya daha çox yüksək səviyyəli tədbirin keçirilməsi faydalıdır. Bu tədbirlər siyasətin işçilərin sağlamlığı üçün faydalarını vurğulamalı və mövcud olan tütündən imtina xidmətlərini təbliğ etməlidir. Başlanğıcın məzmunu daha geniş auditoriyanın diqqətini cəlb etmək üçün sosial mediada da yayımlana bilər, sosial mediada izləyicilər yarada bilər və qabaqcıl təcrübələri təbliğ edə bilər.

## 7

### İcra etmə, tətbiq etmə, müşahidə, qiymətləndirmə



**Niyə: Tütün tüstüsündən azad müəssisə siyasətini həyata keçirmək, ÜST TMÇK-nın 8-ci maddəsinə və onun Rəhbər Prinsiplərinə uyğun olaraq işçilərini təhlükəsiz və sağlam iş mühiti ilə təmin etmək və iş yerlərində ikincili tütün tüstüsündən mühafizə etmək üzrə BMT-nin Qərarına cavab verir. Bundan əlavə, siyasətin tətbiqi tütündən istifadə, habelə yeni nikotin və tütün məhsullarının istifadəsi ilə əlaqəli sağlamlıq təsirləri barədə məlumatlılığı artıra bilər və işçilərin tütündən imtina cəhdlərinə müsbət təsir edə bilər. Siyasəti tətbiq etmək, müşahidə etmək və təsirini  qiymətləndirmək, siyasətin müvəffəqiyyətini izləməyə və sonrakı hərəkətlər və yeniliklər üçün dəlil bazasını yaratmağa kömək edə bilər.**

**Necə:** Siyasətin qüvvəyə minməsindən bir neçə həftə əvvəl, baş menecerlər nəzarətçilərə və təhlükəsizlik işçilərinə, riayət olunmama hallarına qarşı necə mübarizə aparacaqlarına dair xüsusi təlimatlar da daxil olmaqla, siyasətin tətbiq edilməsində rollarını aydın şəkildə çatdırmalıdırlar. Hər hansı işçi qrupunun seçilməsi və ya azad edilməsinə yol vermədən siyasətin ədalətli tətbiq edildiyindən əmin olmaq üçün tətbiq olunma nəzarətdə saxlanılmalıdır.

Siyasətin təsirini qiymətləndirmək üçün hansı məlumatların toplanmalı olduğunu aydınlaşdırmaq üçün qiymətləndirmə fəaliyyətlərinin (davamlı) erkən planlaşdırılması lazımdır. Qiymətləndirmənin aparılmasını təmin etmək üçün o, sadə olmalıdır.

Siyasət və mövcud tütündən imtina xidmətləri barədə məlumatlılığı və biliyi qiymətləndirmək üçün tətbiq etməzdən əvvəl və sonra işçilər arasında sorğu keçirilə bilər. Tütündən imtina xidmətlərindən istifadə edənlər arasında 6 aydan sonra işçilərin sağlamlıq xidməti vasitəsi ilə tütündən imtina nisbətlərinin qiymətləndirilməsi də nəzərdən keçirilə bilər. Məsələn, neçə işçinin kömək istədiyini və ya müraciət etdiyini, siyasət elanı olan veb səhifəsini oxuduğunu və ya siyasət nəticəsində tütündən imtina cəhdini izləmək. Qiymətləndirmə nəticələrinin planlaşdırma qrupuna və rəhbərliyə bildirilməsi zəruridir. (Nümunə qiymətləndirmə vərəqəsinə Əlavə 4-də baxmaq olar.)

## 8
## Tütün tüstüsüsndən azad müəssisəni dəstəkləyin



**Niyə: İlkin tətbiqetmə və qiymətləndirmədən sonra tütün tüstüsündən azad məkan siyasətin planlaşdırıldığı kimi həyata keçirilməsinə davam edib-etməməsini öyrənmək və lazımi dəyişiklikləri müəyyənləşdirmək üçün vaxtaşırı müşahidə qiymətləndirmələri aparılmalıdır.**

**Necə:** Addım 7-də olduğu kimi siyasətin davamlı tətbiqetmə, müşahidə və qiymətləndirilməsinin aparılması tövsiyə olunur. Yuxarıda göstərildiyi kimi qiymətləndirmə davamlı olaraq qeydlər kimi aparılmalı və siyasətin uzunmüddətli təsirini müəyyənləşdirməlidir. İlkin təcrübələr müsbət olarsa, bu, ÜST-də olduğu kimi digər BMT müəssisələrinin tam tütündən azad edilməsinə təkan verə bilər.

**Tütün tüstüsündən azad BMT müəssisələrinin bəzi nümunələri**

Ümumdünya Səhiyyə Təşkilatının Cenevrədəki Baş qərargahı
Ümumdünya Səhiyyə Təşkilatının Afrika üzrə Regional Ofisi
Ümumdünya Səhiyyə Təşkilatının Amerika üzrə Regional Ofisi
Ümumdünya Səhiyyə Təşkilatının Şərqi Aralıq dənizi üzrə Regional Ofisi
Ümumdünya Səhiyyə Təşkilatının Qərbi-Sakit Okean üzrə Regional Ofisi
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Əfqanıstan
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Misir
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, İordaniya
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Livan
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Oman
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Yəmən
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Fici
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Kiribati
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Monqolustan
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Papua Yeni Qvineya
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Filippin
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Solomon Adaları
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Vanuatu
Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Vyetnam (BMT Müəssisəsi)

# ƏLAVƏ 1

## Planlaşdırma Komitəsinin çağırılması və işi bardə məlumat verilməsi

**Planlaşdırma komitəsinə kommunikasiya, işçilər üçün müavinətlər, infrastruktur və fəaliyyət, sağlamlıq və təhlükəsizlik, insan resursları, həmkarlar ittifaqları, idarəetmə, əməyin sağlamlığı və təhlükəsizliyi, siyasət / hüquq və mühafizə / tətbiqetmə də daxil olmaqla müxtəlif şöbələrdən işçilər və nümayəndələr daxil olmalıdır.**

### Planlaşdırma Komitəsi tərəfindən tütün tüstüsündən azad müəssisə yaratmaq üçün ediləcək fəaliyyətlərin nümunəvi kommunikasiyası

Planlaşdırma Komitəsi sədrlərinin [sədrlərin adlarını və tarixi daxil edin] Memorandumunda qərar verildi ki, ÜST-nin Tütünə qarşı Mübarizə  haqqında Çərçivə Konvensiyasının (ÜST TMÇK) 8-ci Maddəsinin və onun həyata keçirilməsinin Rəhbər Prinsiplərinin tələblərinə uyğun olaraq [BMT agentliyinin adını daxil edin] tütün tüstüsündən azad məkan elan edilməsi üçün lazım olan əsas tədbirlər aşağıdakıları əhatə etməlidir:

1. [Tarix] tarixdən başlayaraq [tüstüsüz məkan siyasətinin başlanma tarixi] tarixədək məlumatlandırıcı kampaniyasının [kampaniyanın adı, əgər varsa] həyata keçirilməsi.
2. Tütün çəkmədən imtina etmək istəyənlərin mövcud dəstək mexanizmləri barədə məlumatlandırılması.
3. [BMT agentliyinin adı] [tarix] tarixində tütün tüstüsündən azad məkan olacağı və siqaret çəkmək üçün ayrılmış bütün yerlər rəsmi olaraq bağlanacağı barədə ictimai bəyanat.

# ƏLAVƏ 2

## Planlaşdırma Komitəsinin çağırılması və işi bardə məlumat verilməsi

**[Təşkilatın adı] tütün tüstüsündən azad müəssisə siyasətini nəzərdən keçirir. Xahiş olunur  bu sorğunu tamamlamaq və [məsul bölmə / şəxs] qaytarmaq üçün vaxt tapın. Xahiş olunur unutmayın ki, bütün cavablarınız məxfi qalacaq.**

**1a.** **Hazırda siqaret / tütün çəkirsiniz?**

☐ Bəli ☐ Xeyr

**1b.** **Hazırda elektron nikotin çatdırılma sistemlərindən (ENÇS), məsələn. e-siqaret və ya digər buxar əmələ gətirən məhsullardan istifadə edirsiniz?**

☐ Bəli ☐ Xeyr

**2a.** **Siqaret / tütün çəkirsinizsə, bu vərdişdən imtina etməklə maraqlanırsınız?**

☐ Mən siqaret / tütün çəkmirəm ☐ Xeyr ☐ Bəli ☐ Bilmirəm

**Cavab "Bəli" olarsa, hansı dəstəyə ehtiyacınız var?** ______________________________

**2b.** **ENÇS istifadəçisisinizsə, bundan imtina etməyə maraqlanırsınız?**

☐ Mən siqaret / tütün çəkmirəm ☐ Xeyr ☐ Bəli ☐ Bilmirəm

**Cavab "Bəli" olarsa, hansı dəstəyə ehtiyacınız var?** ______________________________

**3a.** **Son 30 gün ərzində [təşkilatın adı] ərazisindəki qapalı yerlərdə kiminsə siqaret / tütün çəkdiyini görmüsünüz?**

______________________________

**3b.** **Son 30 gün ərzində [təşkilatın adı] ərazisindəki qapalı yerlərdə kiminsə ENÇS çəkdiyini görmüsünüz?**

______________________________________________

**4a.** **Son 30 gün ərzində [təşkilatın adı] ərazisindəki açıq yerlərdə kiminsə siqaret / tütün çəkdiyini görmüsünüz?**

______________________________________________

**4b.** **Son 30 gün ərzində [təşkilatın adı] ərazisindəki açıq yerlərdə kiminsə ENÇS çəkdiyini görmüsünüz?**

______________________________________________

**5a.** **İş yerində və müəssisədə tütün tüstüsü sizi narahat edir?**

☐ Bəli ☐ Xeyr ☐ Bilmirəm

**5b.** **İş yerində və müəssisədə ENÇS istifadəsi sizi narahat edir?**

☐ Bəli ☐ Xeyr ☐ Bilmirəm

**6a.** **Bildiyiniz və ya inandığınıza əsaslanaraq, başqalarının çəkdiyi tütün tüstüsü ilə nəfəs almaq çəkməyənlərdə ciddi xəstəliklərə səbəb olur?**

☐ Bəli ☐ Xeyr ☐ Bilmirəm

**6b.** **Bildiyiniz və ya inandığınıza əsaslanaraq, başqalarının istifadə etdiyi e-siqaret buxarı ilə nəfəs almaq istifadə etməyənlərdə ciddi xəstəliklərə səbəb olur?**

☐ Bəli ☐ Xeyr ☐ Bilmirəm

**7a.** **Bildiyiniz və ya inandığınıza əsaslanaraq, iş yerində tütün tüstüsü məhsuldarlığa təsir edir?**

☐ Bəli ☐ Xeyr ☐ Bilmirəm

**7b.** **Bildiyiniz və ya inandığınıza əsaslanaraq, iş yerində e-siqaret buxarı məhsuldarlığa təsir edir?**

☐ Bəli ☐ Xeyr ☐ Bilmirəm

**8a.** **[Təşkilatın adı]-da tütün tüstüsündən azad müəssisə siyasətinin həyata keçirilməsini dəstəkləyirsiniz?**

☐ Bəli ☐ Xeyr ☐ Bilmirəm

**8b.** **ENÇS-i əhatə etmək üçün tütün tüstüsündən azad müəssisə siyasətinin genişləndirilməsini dəstəkləyirsiniz?**

☐ Bəli ☐ Xeyr ☐ Bilmirəm

**9.** **Zəhmət olmasa əlavə şərh verin.**

______________________________________________

______________________________________________

**İştirak etdiyiniz üçün təşəkkür edirik.**

# ƏLAVƏ 3

## Dəstəkləyici mühitin yaradılması

**Girişlərdə və digər uyğun yerlərdə aydın şəkildə "Siqaret çəkmək qadağandır" işarələrinin yerləşdirilməsi tövsiyə olunur. Eyni zamanda tütündən imtina xidmətləri haqqında məlumatların daxil edilməsi də tövsiyə olunur.**

**Təklif olunan "Siqaret çəkmək qadağandır" işarələrinə aşağıdakılar daxil edilməlidir:**

- "Siqaret çəkmək qadağandır" qrafik şəkli
- BMT-nin müvafiq Qətnaməsinin nömrəsi
- Cərimə (varsa)
- Mövcud tütündən imtina xidmətləri haqqında məlumat
- Aşağıda BMT agentliyinin loqotipləri

**Nümunə olaraq Ümumdünya Səhiyyə Təşkilatının "Siqaret çəkmək qadağandır" işarəsi.**
İşarənin daxilində ingilis və fransız dillərində yazı var: "Bütün müəssisəmiz tütün tüstüsündən azad sağlam ərazidir"



# ƏLAVƏ 3.1

## Təbliğat materialının nümunəsi



Tout notre site est un espace sain, sans fumée

Our entire campus is a healthy, smoke-free zone

World Health Organization

Counselling and medication can more than double the chance that a smoker who tries to quit will succeed.

If you have considered or tried quitting, but are not ready yet, the Health and Medical Services (staff) at WHO Headquarters may provide support.

They can answer your questions and help you through with counselling. We also work closely with Geneva-based facilities offering specialized services, including CIPRET (Centre d'Information pour la Prevention du Tabagisme, a local nongovernmental organization) and several hospital centres for smoking cessation.

WHO staff, interns and consultants can find more information on the Intranet page of the Health and Medical Services:

Find out more ways to quit using tobacco at our multilingual web pages:
www.who.int/tobacco

CIPRET's website can be found here:
www.cipret.ch

a healthy smoke-free zone

Every part of WHO headquarters is completely smoke-free, as of 31 May 2013.

Introducing smoke-free zones prevents exposure to second-hand tobacco smoke and encourages smokers to quit.

Our smoke-free campus now includes:
- parking areas,
- gardens,
- all vehicles.

**Tobacco smoking kills**

Tobacco smoke contains more than 7000 chemicals, of which at least 250 are known to be harmful. At least 69 causes cancer. Tobacco smoking causes serious diseases such as cardiovascular and respiratory diseases, cancer in many locations, blindness, osteoporosis, infertility, impotence, tec.

**Exposure to second-hand smoke kills, too**

Even if you don't smoke yourself, exposure to second-hand smoke can lead to death and illness. It increases the risk of coronary heart dieses in non-smokers, causes cancer, and in infants causes sudden death.

There is no safe level of exposure to second-hand tobacco smoke. Approaches other than 100% smoke-free environments, including ventilation, air filtration and designation of smoking areas have repeatedly been shown to be ineffective. That's why smoking is not allowed in any of the indoor areas of the WHO premises.

**Protecting staff and visitors**

Our smoke-free policy protects staff and visitors' health.

When smokers work in smoke-free buildings, they often congregate outside. As a result, pollution level in those outdoors sports and concentrations of second-hand smoke are high.

In addition, residual tobacco smoke pollutants remain on clothing after tobacco has been smoked outdoors, and when the smoker comes back indoors these pollutants are re-emitted back into the air, or react with oxidants and other compounds in the environment to yield secondary pollutants.

To avoid exposure to second-hand smoke and encourage smokers to quit, the entire WHO campus is now becoming completely smoke-free, as of 31 May 2013.

**What can you do**

Staff and visitors – we can all contribute to the smoke-free environment while on the WHO compound. You can play your part by not smoking. Please inform any person who is seen smoking that the entire WHO campus is smoke-free. This would help to maintain a healthy environment for everyone.

# ƏLAVƏ 4

## Tətbiq olunma və qiymətləndirmə

**Tütün çəkmənin qadağan edilməsi siyasətinin qüvvəyə mindikdən sonrakı ilk bir neçə gündə, həmin siyasət üçün görünən dəstək verilməsi məqsədilə, rəhbər işçilərin müxtəlif qapalı yerlərdən (ofislərdən, dəhlizlərdən və s.), xüsusilə işçilərin keçmişdə ənənəvi olaraq siqaret çəkdikləri yerlərdən keçmələri faydalı ola bilər.**

### Nümunə qiymətləndirmə cədvəli

| Qiymətləndirmə cədvəlinin göstəriciləri | Görülən tədbirlər | Boşluqlar | Lazım olan tədbirlər |
|---|---|---|---|
| İcra orqanlarının, şəxslərin təyin edilməsi | | | |
| İcra etmə gücünə sahib olanlar/olacaqlar kimlərdir (siyahı)? | | | |
| İcra orqanlarına məsuliyyətləri barədə məlumat verilib? Əgər yox, onda məsuliyyətləri barədə onlara necə məlumat veriləcək? | | | |
| İcraçıların cərimələndirnək səlahiyyəti (varsa) | | | |
| İcraçıların təlimləndirilməsi | | | |
| Yoxlamalar üçün protokol (sistem və alətlər) | | | |
| Əhali və digər işçilərin pozuntu barədə məlumat verməsi və ya kömək istəməsi mexanizmləri (veb sayt, inam telefonu və s.) | | | |
| İcra etmək istəyinin nümayişi (cərimələr, icra və riayət olunma barədə məlumat) | | | |
| İcra olunmanın monitorinqi, müxtəlif şöbələrdən məlumatların toplanması | | | |

**Tütün tüstüsündən azad müəssisələrin monitorinqi:** Siyasətin bütün komponentləri həyata keçirildikdən sonra, uyğunsuzluğu, qarışıqlıq sahələrini və ya digər problemləri müəyyən etmək üçün dəqiq monitorinq aparılmalıdır. Lazım gələrsə, siyasət aydınlaşdırıla bilər və tətbiq və icra prosedurları düzəldilə bilər. Öyrənilən təcrübəni sənədləşdirmək və işçilərin şərhlərini izləmək də çox faydalıdır. Bu məlumatlar həll edilməli olan geniş problemləri müəyyənləşdirməyə kömək edə bilər. İşçilərin şərhlərinə, təkliflərinə və narahatlıqlarına vaxtında, düşünülmüş bir şəkildə cavab vermək, şərhlərinin ciddi qəbul edildiyini göstərir.

Təkrarlanan suallara cavab vermək üçün tez-tez verilən suallar sənədi hazırlanmalıdır. Diqqət və kommunikasiya səylərinin işçilərin tütün və nikotin məhsullarından istifadə etməyə alışdıqları yerlərə yönəldilməsi lazımdır. Planlaşdırma Komitəsi məlumatlandırılmalı və icra prosesi qiymətləndirilməlidir. Siyasət üçün yüksək rəhbərliyin qeyd-şərtsiz dəstəyi çox vacibdir və fəal şəkildə davam etməsi zəruridir. Tütün asılılığı və tütün çəkmənin dayandırılması ilə bağlı pulsuz xidmətlər təklif edilərsə, bunlardan istifadə haqqında hesabat bu xidmətlərin davamlı təşviqi üçün strategiya ola bilər.

# ƏLAVƏ 4.1

## Avropa Birliyində tütün tüstüsündən azad məkanlara dair qanunvericiliyin qiymətləndirilməsi

AB tərəfindən tütün tüstüsündən azad məkanlar qanunvericiliyin qiymətləndirilməsi barədə daha ətraflı məlumat aşağıdakı linkdən əldə edilə bilər:
https://webgate.ec.europa.eu/chafea_pdb/assets/files/pdb/2007313/2007313_d3_oth_en_ps.pdf

# ƏLAVƏ 5

## İstinadlar və mənbələr

### Nümunə tütün tüstüsündən azad iş yeri siyasəti (Amerika Xərçəng Cəmiyyəti).

İş yerində tütündən istifadə: model siyasət (https://www.cancer.org/healthy/stay-away-from-tobacco/smoke-free-communities/create-smoke-free-workplace/smoking-in-the-workplace-a-model-policy.html, 16 Avqust 2019-cu il tarixinə olan vəziyyət).

### Digər təşviqat materialları:

- ÜST-nin Qərbi-Sakit Okean üzrə Regional Ofisi. İnqilabi tütün tüstüsündən azad məkan (https://web.wpro.who.int/revolutionsmokefree/, 16 Avqust 2019-cu il tarixinə olan vəziyyət).
- CDC. Tütünsüz Sosial Media Alətləri (https://www.cdc.gov/women/tobaccofreetoolkit/index.htm, 16 Avqust 2019-cu il tarixinə olan vəziyyət).
- Amerika Ağciyər Assosiasiyası. İş yerinizi tütün tüstüsündən azad edin (https://www.lung.org/local-content/minnesota/ documents/worksite-wellness-toolkit.pdf, 16 Avqust 2019-cu il tarixinə olan vəziyyət).
- Qərbi Avstraliyanın Səhiyyə Nazirliyi. Tütün tüstüsündən azad iş yerlərinin dəstəklənməsi - siyasətin tətbiqetmə təlimatı (https://www.commerce.wa.gov.au/sites/default/files/atoms/files/supporting_smoke_free_workplaces.pdf, 16 Avqust 2019-cu il tarixinə olan vəziyyət).
- Ümumdünya Səhiyyə Təşkilatı. Tütün istifadəçiləri üçün tütündən imtina üzrə rəhbər vəsait (https://apps.who.int/iris/bitstream/handle/10665/112833/9789241506939_eng.pdf;jsessionid=AF193E2D5DC1FDFC35CED03C4B3E96FF?sequence=1, 16 Avqust 2019-cu il tarixinə olan vəziyyət).
- Ümumdünya Səhiyyə Təşkilatı. Tütündən imtina məsləhətçiləri üçün təlim: telefonla məsləhət (https://apps.who.int/iris/bitstream/handle/10665/113145/9789241507264_eng.pdf?sequence=1, 16 Avqust 2019-cu il tarixinə olan vəziyyət).

## İstinadlar:


1. Robbins AS, Fonseca VP, Chao SY, Coil GA, Bell NS, Amoroso PJ. Short term effects of cigarette smoking on hospitalization and associated lost workdays in a young health population. Tob Control. 2000;9(4):389–96.
2. Siegel M. Involuntary smoking in the restaurant workplace. A review of employee exposure and health effects. JAMA. 1993;270(4):490–3. Dimich-Ward H, Gallagher RP, Spinelli JJ, Threlfall WJ, Band PR. Occupational mortality among bartenders and waiters. Can J Public Health. 1988;79(3):194–7.
3. Halpern MT, Shikiar R, Rentz AM, Khan ZM. Impact of smoking status on workplace absenteeism and productivity. Tob Control. 2001;10(3):233–8.
4. National Fire Protection Association. Smoking-material fire problem fact sheet. Quincy, MA: National Fire Protection Association; 2013 (https://www.nfpa.org/-/media/Files/News-and-Research/Fire-statistics/Fact-sheets/smokingfactsheet.ashx, accessed 24 February 2018).
5. Centre for Economics and Business Research. Smoking costs UK businesses £8.7bn. In: CEBR.com [website]. London, UK: Centre for Economics and Business Research; 2014 (https://cebr.com/reports/smoking-costs-uk-businesses-8-7bn/, accessed 28 February 2018).
6. United States Environmental Protection Agency. The costs and benefits of smoking restrictions: an assessment of the Smoke-Free Environment Act of 1993(H.R. 3434): executive summary. Washington, DC: United States Environmental Protection Agency; 1994 (https://nepis.epa.gov/Exe/ZyPURL.cgi?Dockey=100045VS.txt, accessed 1 March 2018).
7. Hyland A, Cummings KM. Consumer response to the New York City Smoke-Free Air Act. J Public Health Manag Pract. 1999;5(1):28–36; p35, footnotes 4–11.






World Health Organization

FCTC
WHO FRAMEWORK CONVENTION ON TOBACCO CONTROL
SECRETARIAT

#beatNCDs
UN INTERAGENCY TASK FORCE ON NCDs
@un_ncd